Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

03.12.2018-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

# Q Ə R A R I

Protokol № 3

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1. İctimai səhiyyə fakültəsi kafedralarında tədris prosesinin, tədris-metodik sənədlərinin yoxlanılmasının nəticələri barədə Dekanlığın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin;

2. ATU-nun Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, prof. M.Kazımovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin;

3. Tədris-metodik işin keyfiyyətinin yüksəldilməsi məqsədilə Fakültə metodik Komissiyası təsdiq olunsun.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedraların fəaliyyətini əks etdirən sənədlərin vaxtında və düzgün doldurulmasına nəzarət gücləndirilsin;

2. Kafedralarda Bal-reytinq qiymətləndirmə sisteminə uyğun işə nəzarət edən Metodik qrupların fəaliyyətinə şərait yaradılsın;

3. Professor-müəllim heyəti imtahan sessiyası başlanana qədər tədris olunan fənnin proqramda nəzərdə tutulmiş bilik və bacarıqlarının tələbələr tərəfindən mənimsənilməsinə nail olsunlar;

4. İmtahanda ayrı-ayrı fənlər üzrə apelyasiya müraciətlərinə görə cavabdehlik daşıyan müəllimlərin siyahısı dekanlığa təqdim edilsin;

5. Yekun qiymətləndirmə vərəqələrinin səliqəli tərtibinə, düzəlişlərə yol verilməməsinə və yalnız doldurulmuş vərəqələrin tələbələr tərəfindən imzalanmasına nəzarət edilsin.

III. Azərbaycan dili kafedrasının müdirinə tapşırılsın ki, VTM-nə təqdim edilən test suallarında səhvlərin və anlaşılmazlıqların qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilsin.

IV. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: t.e.d., dosent A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva